# SÖYÜDVARİ AKASİYANIN ABŞERON YARIMADASINDA ÇOXALDILMASI

**Elnarə Salahova**

*AR ETN Dendrologiya İnstitutu, Bakı*
*Salahova.elnara@bk.ru*

Son illər bütün dünyanı narahat edən əsas məsələlərdən biri iqlim dəyişkənliyi və onun bioloji müxtəlifliyə təsiridir. Bu məqsədlə bir sıra tədbirlər, konfranslar və ağacəkmə aksiyaları həyata keçirilir. Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə Dendrologiya İnstitutunun "Ağac-kolların introduksiyası və iqlimləşdirilməsi" laboratoriyası bir çox bitkilərin çoxaldılması və introduksiyasını həyata keçirir. Bu səbəblə Saray Təcrübə sahəsində, Zəngilan rayonunun Ağalı kəndində və bir sıra məktəblərdə yaşıllaşdırma işləri aparılmışdır. Bu bitkilərdən biri də Türkiyədən gətirilmiş *Acacia saligna* (Labill.) H.L.Wendl. – Söyüdvari akasiyadır.

Söyüdvari akasiyanın vətəni Avstraliyanın cənub-qərbidir. Söyüdvari akasiya həmçinin Afrika, Cənubi Amerika və Yaxın Şərqdə yayılmışdır.

Söyüdvari akasiya 5-9 m hündürlüyündə olan ağacdır. Gövdəsinin rəngi qəhvəyi və ya boz, qabığı adətən hamar olur. Yarpaqları sadə, bütöv, hamar, rəngi yaşıldan tutqun maviyə qədər, açıq yaşıl rəngə çevrilir. Yarpaqların ölçüsü 8-30 sm uzunluğunda və eni 0,5-1,4 sm-dir. Yarpaqların forması müxtəlifdir, adətən ensiz, lansetvari, mərkəzi damar və dibində və ya ucunda daralmış nazik ikincili damarlar adətən daha geniş və dalğalı yarpaqları olur.

Söyüdvari akasiyanın çiçəkləri sarıdır. Martdan aprelə qədər çiçək açır, çiçəkləri parlaq sarı topları ilə sıx örtülmüşdür. Vəzilər qarışqaları cəlb edən nektar istehsal edir. Meyvələr yetişmiş qəhvəyi lobyadır, uzunluğu 5,5-15 sm və eni 0,5-0,6 sm, hamar, düz və ya bir qədər əyri, yastı, bəzi toxumlar arasında lobya qapaqlarının kənarı bir qədər daralmışdır.

Dendrologiya İnstitutunun Saray Təcrübə sahəsində 200 ədəd toxum sahəyə səpilmişdir. Cücərmə faizi və enerjisi hesablanmışdır. 200 ədəd toxumdan 180-ı cücərmişdir. Cücərmə faizi 90% olmuşdur. Aprel ayının II ongünlüyündə ləpə yarpaqları, may ayının I ongünlüyündə əsl yarpaqlar əmələ gəlmişdir. Ləpə yarpaqları əsl yarpaqlar əmələ gələnə qədər bitkidə assimilyasiya proseslərini həyata keçirməyə xidmət edir.

Söyüdvari akasiya müxtəlif məqsədlər, o cümlədən Afrika, Cənubi Amerika və Yaxın Şərqin quraq ərazilərində sığınacaqlar yaratmaq və torpaq eroziyasının qarşısını almaq üçün istifadə olunur.

Söyüdvari akasiya həmçinin bitki örtüyünün bərpası, ağac çıxarma sahələrinin dirçəldilməsi, aqromeşə təsərrüfatı, heyvan yemi və bəzək bitkisi kimi istifadə edilir.